## Səməd VURĞUN - 120

# "BAHAR, İSTƏKLİMSƏN..."

Azərbaycan poeziyasında bahar ən istəkli mövzu olur. Şairlər təbiətin gözəllik donunu geyməsindən vəcdə gəlir. Yazın gəlişi ilə açan gülləri, çiçəkləri ayrı-ayrılıqda tərənnüm ediblər, sevgi ilə şeirə gətiriblər. həm də, bütövlükdə çölləri, çəmənləri vəsf ediblər. Saysız hesabsız "Bənövşə"lər, "Lalə"lər, "Nərgiz"lər, "Qızılgül"lər belə yaranıb. Həssaslıqla və istedadlayazılan şeirlərdə şairlərin nəbzi döyünür. Sanki, ürək çırpıntıları misralar da hiss olunur.

Baharı xüsusi sevgi ilə tərənnüm edən şairlərdən biri də Səməd Vurğundur. Səməd Vurğunun məşhur bir şeiri var, "Təbiət ilhama çağırır məni". Bu şeirdə dağların, bulaqların, dağ döşündəki əriyən qarın yaratdığı möhtəşəm mənzərə o qədər real, o qədər parlaq cizgilərlə verilib ki, istər-istəməz biz şeirin ahənginə qoşulub şairin özü ilə birgə təbiəti seyrə çıxırıq. Əlbəttə, xəyalımızla, düşüncələrimizlə... mənzərə gözlərimizin önündə həyatın gözəlliyini açır. Insan bütün varlığı ilə təbiətə bağlanır, həyata bağlanır, yaşamaq istəyir. Bəli, bu mənada Səməd Vurğun doğru deyirdi təbiət insanı yaşamağa çağırır, necə ki, şairi də ilhama çağırırdı:

Yenə də yam-yaşıl geyinir dağlar,
Göz kimi durulur qaynar bulaqlar.
Əriyir güneylər döşündəki qar,
Yağış da isladır o göy çəməni,
Təbiət ilhama çağırır məni!

Səməd Vurğun bütün varlığı ilə beləcə təbiətlə doğmalaşır, özü təbiətə qovuşuer və təbiətdə onun poeziyasına qovuşaraq onu yaşamağa, yaratmağa çağırıb. Şair baharla qovuşduqca öz ürəyinin səsini eşirdir. Qəlbi ona pıçıldayır ki, hələ yaşa-yarat çünki, sənin sinəndə daşıdığın ürək hələ odludur.

Şübhəsiz ki, şair qəlbinin odu-atrəşi ilə düşüncələrinə söz donu biçir. Onun duyğulanmaları məhz bu cür hisslərin təsiri altında şeir olur, sənət olur:

Ürək dil acır ki, sönməmiş odum,
Hücuma başlayır mənim söz ordum...
Könüllər mülkündə min yuva qurdum,
Unutmaz aləmdə sevən seveni,
Məhəbbət ilhama çağırır məni!

Görürəm, dan yeri yenə sökülür,
Göydən yer üzünə nurlar tökülür.
Zəmiləri, tarlalar üzümə gülür,
Gözümdə saralır sünbülün dəni...
Bu nemət ilhama çağırır məni!

Sözün həqiqi mənasında bu misraları oxuyan hər kəsin qəlbi riqqətə gəlir. Azərbaycan çöllərinin, Azərbaycan təbiətinin bütün gözəllikləri gözlərimizin önündə açılır. Əslində elə şairin də sözün də, sənətin də missiyası budur. Səməd Vurğunun poeziyası həmişə qanadlı bir romantika ilə çağlayır. Amma, o bütün hallarda yerdən üzülmür, real həyatdan uzaqlaşmır. Bəlkə elə buna görə də o özünü göylərin övladı hesab etmir. Onu həyata bəxş edən torpağa öz sevgilərini bildirir. O, həyat sevgisinin, yurd eşqininin, sənət məhəbbətinin yaratdığı ovqatı ən üstün sözlərinə, ən sevgili misralarına qovuşdurur. Bu, sənətkarın doğulub, böyüdüyü torpağa sevgisinin cavabıdır. Növbəti bəndləri oxuduqca poeziyanın yaratdığı mənəvi saflıq mərtəbəsinə qalxır və bu ucalıqdan Səməd Vurğunun necə ilhama gəldiyini müşahidə edirik:

Mən yaranmamışam göylər övladı,
Əzəl şöhrətimdir torpağın adı...
Bu eşqim çoxuna qismət olmadı,
Şairim! Aç, payla söz xəzinəni,
Şeriyyət ilhama çağırır məni!

Aynabənd evlərin eyvanı sərin,
Yuyunur qoynunda al şəfəqlərin.
Hər batan axşamın, doğan səhərin
Hüsnü salamlayır al pəncərəni,
Səadət ilhama çağırır məni!
Şirvanda sayrışır bağlar-bağatlar?,
Şənliklər yanında kişnəşir atlar,
Axır qoşun-qoşun ellər, elatlar,
Əlilə kəşf edir hər dəfinəni,
Bu sənət ilhama çağırır məni!

Səməd Vurğun Azərbaycan təbiətini doğma yurdu bütöv bir can kimi görürdü. Onun mövzu əhatəsi Bütöv Azərbaycan idi. Ona görə də o, "Şirvan"ı da, "Muğan"ı da, "Mil"i də, "lənkəran"ı da, "Qarabağ"ı da bütöv bir can kimi tərənnüm edir. O gözlərininin önündə dəyişən həyatı, sevgili nəzərləri ilə müşahidə edir. bu duyğulu, səmimi, doğma ünsiyyət şairə yaşamaq gücü bəxş edir. sevinir ki, onun ölkəsi nurlanır, işıqlanır. Yüz illər boyu sussuz qalan çöllərə su gəlir. Boz çöllər, səhralar simasını dəyişir. Məhz bu dəyişmə ilə torpağa insanın halal zəhməti ilə bəxş olunan yeni don biçilir. Barlı-bərəkətli çöllər bu gözəllik donu ilə insanları zəhmətə çağırır:

Muğana su gəlir, Milə su gəlir,
Axışıb öz eli, ulusu gəlir...
Torpağa insanın arzusu gəlir,
Bağrıma basıram ana Vətəni,
Bu ülfət ilhama çağırır məni!

Ürək dil acır ki, sönməmiş odum,
Hücuma başlayır mənim söz ordum...
Könüllər mülkündə min yuva qurdum.
Unutmaz aləmdə sevən seveni,
Məhəbbət ilhama çağırır məni!..

Beləliklə, şairin söz ordusu, ilahmı ilə qovuşaraq yeni sənət zirvələri fəth edir. Bu zirvələrin hər biri şairin əbədi yaşarlığı üçün təminat verən bir abidədir. Şair özü doğru deyir ki, o, könüllər mülkündə yuva qurduğu üçün unudulmayacaq. Çünki, o, xalqını, torpağını, yurdunu, Vətənini sevir. Dünyada da Vətənini-yurdunu sevən kəslər heç vaxt unudulmur.

Səməd Vurğun əlinə qələm alan gündən onun ən yaxın sirdaşı Azərbaycan təbiəti olub. Demək, Azərbaycan torpağı, odlar yurdu onun həm də sözsənət meydanı olub. əlbətt, şair yaradıcılığının ilk dövrlərində təbiətlə təmas zamanı gənclik hissiyyatı ilə duyğulanırdı. Onun çox dəyərli bir şeiri var. şeirin ilk misrası "Bir yaz sabahının ilk əzanıydı". Bu misranın özü də şairin hələ kədər qarışıq ovqatdan qurtulmadığı bir zamanı yada salır. Ancaq, hər halda şair bir yaz səhərindən danışır. Əlbəttə ki, öz ovqatı ilə yazın gətirdiyi gözəllik mənzərəsi sanki ruhən qarşılaşır:

Bir yaz sabahının ilk əzanıydı,
Süzüldü gözlərim xumarlanaraq.
Xilqətin mənalı bir zamanıydı,
Sular səslənirdi dalğalanaraq.

Açdım önümdəki bir pəncərəni,
Adamı şiddətlə döydü küləklər.
Mən seyrə dalırkən dağı, dərəni,
Uzaqdan gülürdü güllər, çiçəklər.

Üç bəndlik şeirdən gətirdiyimiz nümunə - yəni iki bənd şairin yazla-baharla ilk dostluğundan xəbər verir. Şair bu şeiri 1928-ci il, 1 sentyabr tarixində yazıb. Amma göründüyü kimi şeir bir yaz xatirəsidir, bahar xatirəsidir. O vaxt Səməd Vurğunun 22 yaşı vardır, və ilk sevginin sarsıntılarından qurtulmamışdı. Səməd Vurğun Azərbaycan poeziyasının ən müxtəlif janrlarında uğurla qələm işlədən şairdir. O, uşaqlar üçündə çox dəhyərli bir bahar nəğmələri yaradıb.

Şairinin "BAHAR ŞƏRQİSİ" adı ilə "Körpələr"ə həsr etdiyi şeiri bu gündə kiçik yaşlı balaların mənəvi tərbiyəsində xüsusi əhəmiyyətə malikdir.

Günəş doğdu, yayıldı,
Yatan ellər ayıldı.
Açdı çiçəkli güllər,
Dilə gəldi bülbüllər.
Qar, çovğun gözdən itdi,
Dağlarda lalə bitdi.
Qanadlandı buludlar;
Yerdəki əlvan otlar
Cücərib boy atdılar,
Aləmə naz satdılar.
Artdı suların səsi,
Sevindirdi hər kəsi.

Mirzə ələkbər Sabirin, Abdulla Şaiqin uşaqlar üçün dəyərli əsərlər yaradan digər sənətkarlarımızın poetik inciləri ilə səsləşən bu şeiri hər bir gənc ana körpə yaşlı övladına öyrətsə vətən üçün layiqli övlad böyütmək missiyasını yerinə yetirmiş olar. Şeir uşaqların nitq inkişafı, təbiəti, gülləri, çiçəkləri sevmək hisslərini aşılamaq baxımından çox dəyərlidir. Düşünürəm ki, Səməd Vurğunun uşaqlar və yeniyetmələr üçün yazdığı şeirləri ayrıca bir kitab halında tərtib etmək və nəşrinə nail olmaq çox əhəmiyyətli bir iş olardı.

Bu qeydlərimizn mpözusu "Səməd Vurğun və bahar" seçimidir. Ona görə də şairin "Bahar" məzmunlu şeirlərinin heç olmasa müəyyən qismi haqqında oxuculara bir qədər əhatəli məlumat vermək üçün daha bir çox örnəkləri də yada salmaq vacibdir. Şairin "BAHAR" adlı bir şeiri var. Bu şeirdə müəllif baharı canlı bir varlıq kimi, ecazkar bir gözəl kimi tərənnüm edir. O bahara müraciətlə deyir ki, hər dəfə səni gördükdə gözlərim sevgi ilə yanır işıqlanır. Çünki sən bir güzgüsən. bax budur Səməd Vurğun poeziyasının insan ruhana təsir edən ecazkar sirri. O, elə maraqlı bənzətmələr, bədii təsvir vasitələri işlədir ki, şeir bütün gücü ilə sevgi donuna bürünmüş olur:

Mən səni gördükcə gözlərim yanır,
Sən ey gəncliyimin güzgüsü bahar!
Uçan buludların bəzən dayanır,
Yoxsa söyləyəcək bir sözünmü var?
Sən ey gəncliyimin güzgüsü bahar!

Özün bilirsən ki, xeyli zamandır
Çiçəkli düzlərə qanad gərmədim.
Kim deyər gəncliyim haman, hamandır
-Mən keçən günlərə yol göstərmədim;
Çiçəkli düzlərə qanad gərmədim.

Bu şeirdə də şairin iztirabları hiss olunur. O hələ ilk gənclik xatirələrindən tam ayrılmayıb. Ona görə də şeirin məzmununun da şairin yaşadığı həyatın kədərli tərəfləri də əks olunub. Bütün bunlara baxmayaraq, şair keçmişdə qalmır. O, ötüb - keçmiş vaxtdan ayrıldığını hiss edir. İndi o gələcəyi daha aydın görür. Elə ona görə də çiçəkli dqüzlərə qnad gərmədiyini təəssüf edir. Bu yolun son ucu şairə daha geniş üfüqlər vəd edir. O, bütün varlığı ilə təbiətinə qəlbinə yol açmış bahar duyğularına qovuşur. Bu baharla irəliyə doğru can atır.

O, sanki baharla dialoqa girir, onunla danışır nəhayət bahara izah etmək istəyir ki, onun qəlbi sevgi dünyasına Açıqdır. O insanları sevir elə baharı sevdiyi qədər sevir. Ona görə də bahara öz ruhunu əmanət etməkdən çəkinmir. Ancaq həm də ona deyir ki, aradakı ilqarı məhəbbəti qorumaq lazımdır, bu dostluq əbədi bir dostluq olmalıdır. Səməd Vurğunun ruhu göstərir ki, qəlbən, ruhən baharla əbədi dost olmuşdur:

Bahar! Gəl demə ki, qanım soyuqdur,
Mənim də qəlbimdə əməllərim var...
Kim deyir, sevginin mənası yoxdur?
Gözlə, qırılmasın ortada ilqar,
Mənim də qəlbimdə əməllərim var...

Qoy deyim onları, eşit, sən də bil;
Bil ki, hər əməlim bir kainatdır.
Səsimə səs versin bağçada bülbül;
Cahanda ən gözəl, məncə, həyatdır,
Bil ki, hər əməlim bir kainatdır...

*(Davamı var)*